***Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə ortaya çıxan mənzərə bu ərazilərdə bərpa-quruculuq işləri aparmaq üçün böyük çətinlik yaradır. Hər kəsə məlumdur ki, ermənilər işğal etdikləri rayon və kəndlərdə hər şeyi dağıdıb. II Qarabağ müharibəsində işğal altında olan torpaqlarımızı düşmən tapdağından qurtarsaq da, həmin ərazilərə qayıtmaq, orada həyatı bərpa etmək üçün hələ çox iş görülməlidir. Lakin hərbi əməliyyatların ardından, vaxt itirmədən başlanan bərpa-quruculuq prosesi onu deməyə əsas verir ki, tezliklə bu ərazilərdə vətəndaşlarımızın yaşaması üçün hər cür şərait yaradılacaqdır. Məlum olduğu kimi, bu istiqamətdə layihələr 2020-ci ilin sonlarından etibarən başlanıb. Bu fikirləri bizimlə söhbətində politoloq Samir Nuriyev bildirdi.***



# Ağdamda reallaşdırılan layihələr bərpa-quruculuq prosesinin parlaq ifadəsidir

S.Nuriyev qeyd etdi ki, Prezidentin ehtiyat fondundan, eləcə də dövlət büdcəsindən bu işlərin görülməsi üçün xeyli vəsait ayrılıb.

– Azad edilən ərazilərdə həyata keçirilən proqramların miqyası onu göstərir ki, Azərbaycan Vətən müharibəsindən sonra vaxt itirmədən bu işlərə başlayıb. Bu, həmçinin bölgədə davamlı sülhün tərəfdarı olduğumuzun göstəricisidir. Prezidentimizin işğaldan azad edilən torpaqlarımıza mütəmadi etdiyi səfərlər, görülən işlərlə şəxsən tanış olması, müvafiq tapşırıqlar verməsi isə Azərbaycanın dövlət səviyyəsində bərpa-quruculuq işlərini nəzarətdə saxladığını göstərir.

Yeri gəlmişkən, fevralın 13-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva növbəti dəfə Ağdamda səfərdə oldular. Xatırladım ki, işğaldan azad edilən rayon mərkəzləri arasında ilk baş plan da məhz Ağdam şəhəri üçün hazırlanıb. Bu isə o deməkdir ki, Ağdam şəhərində görülən işlər, yaradılan şərait digər rayonlar üçün də əsas nümunə təşkil edəcək. Səfər zamanı şəhərdə davam edən bərpa-quruculuq işlərilə tanış olan Prezident İlham Əliyev Ağdam Cümə məscidinin önündən azərbaycanlı iş adamlarına çağırış edərək onları istər Ağdama, istərsə də işğaldan azad edilən digər ərazilərə yatırım qoymağa dəvət etdi. Dövlətimizin başçısı səfər çərçivəsində Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməlini qoydu, “Ağdam-1” və “Ağdam-2” yarımstansiyalarının açılışında iştirak etdi.

Ümumiyyətlə, Azərbaycan bütün dünyaya sübut etdi ki, bu işləri görməyə qadirdir. Prezidentimizin dediyi kimi, respublikamız bərpa-quruculuq işlərində də böyük bir siyasi iradə ortaya qoydu. Təsəvvür edin ki, bu qədər böyük ərazi yenidən insanların yaşaya biləcəyi şəhərlərə, kəndlərə çevrilir. Burada vətəndaşlar üçün bütün lazımi şərait yaradılır. Hazırda ölkəmizdə maliyyə və texniki imkanların, təbii resursların və işçi qüvvəsinin böyük qismi işğaldan azad edilən torpaqlarımızın bərpası üçün səfərbər edilib. Dünya görür ki, bizim hansısa kənar qüvvəyə bağlılığımız, heç bir dövlətdən və ya xarici təşkilatdan asılılığımız yoxdur.

Prezidentimizin siyasi iradəsi, uzaqgörən manevrləri xalqa da böyük stimul verir. Bununla yanaşı, bəzi xarici şirkətlər də Qarabağın bərpasında yaxından iştirak edirlər. Belə şirkətlərin sayı gündən-günə artmaqdadır. Əlbəttə, həm yerli, həm də xarici şirkətlərin azad edilmiş torpaqlarda fəaliyyət göstərməyə can atması hər birimiz üçün sevindirici haldır. Lakin görülən işlər bizi arxayınlaşmağa sövq etməməlidir. Hələ qarşıda görüləsi çox işlərimiz var. Uzun illər ata yurdundan didərgin düşmüş vətəndaşlarımızın öz doğma ellərinə qayıtması üçün bərpa və yenidənqurma işləri maksimum sürətlə, intensiv şəkildə davam etdirilməlidir. Ümid edirik ki, tezliklə bərpa prosesi yekunlaşacaq və bu torpaqların həqiqi sahibləri Qarabağa qayıdacaqlar.

***Hazırladı: İmran ƏLİYEV, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 18 fevral.- S.4.